www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-14 (1797) 30 avqust 2024-cü il



## Mehriban Əliyeva - Azərbaycan humanizminin simvolu

### Onun ömür yolu Vətənə və xalqa xidmət nümunəsidir

səh. 2

### Rezidenturanın boş qalan plan yerlərinə ixtisas seçimi aparılır

səh. 3

### Biruni Universitetinin müəllimi ATU-da akademik fəaliyyət göstərib

səh. 4

### Universitetimizdə praktikada olan əcnəbi tələbələrlə görüş keçirilib

səh.3



### Rusiya Səhiyyə Nazirliyinin baş psixiatrı ATU-da olub

Müxtəlif sahələr üzrə əməkdaşlıq perspektivləri müzakirə olunub

səh. 3

### Hepatit virusları uzun müddət orqanizmdə gizli qala bilər

*Professor Sədrəddin Atakişizadə deyir ki, xəstələnməyi gözləmədən infeksiyalara qarşı analiz vermək lazımdır*

səh. 4

### Uşaqlarda hormonal problemlərə getdikcə daha çox rast gəlinir

*İlsur Novruzov: Endokrin pozulmalar - hormonal balans, böyümə, metabolizm və cinsi inkişaf məsələlərini əhatə edir*

səh. 5



### “Azərbaycanda hər yerdə özümüzə qarşı hörmət görürük”

İranlı tələbələrimiz Bakının təhlükəsizliyindən, milli mətbəximizdən və ATU-da tədrisin keyfiyyətindən danışırlar

səh. 7

# Mehriban Əliyeva - Azərbaycan humanizminin simvolu

## Onun ömür yolu Vətənə və xalqa xidmət nümunəsidir

**Vətən və xalq naminə fədakarlıq, müasir Azərbaycanın inkişafında, sosial məsələlərin həllində fəallıq, milli-mənəvi dəyərlərə sadiqlik, sərhəd tanımayan xeyirxahlıq, mərhəmət və şəfqət Azərbaycanın Birinci xanımı, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın həyat fəlsəfəsinin əsas qayəsini təşkil edir. Prezident İlham Əliyevin ömür-gün yoldaşı və ən yaxın silahdaşı olan Mehriban Əliyeva ölkəmizin hərtərəfli tərəqqisi istiqamətində görülən işlərə sanballı töhfələr verir.**





Mehriban xanım ictimai-siyasi həyatda, dönməz xarakter alan islahatlar prosesində fəal iştirakı, milli mədəniyyətimizin dünyada tanıdılması istiqamətində yorulmaz fəaliyyəti, vətənpərvərliyi və xeyirxahlığı ilə milyonların sevimlisinə çevrilib. Haqlı olaraq onu Azərbaycan humanizminin simvolu adlandırırlar. Şəhid ailələrinə, qazilərə xüsusi diqqət, valideyn himayəsindən məhrum olmuş uşaqlara göstərdiyi analıq qayğısı bunun bariz nümunələridir. Vətən müharibəsi zamanı ordumuza verdiyi mənəvi dəstək, milli həmrəyliyə xidmət edən çağırışları daim minnətdarlıq duyğuları ilə xatırlanır. Xalqımızın sosial rifahına hesablanan bir çox layihələrin müəllifi olan Mehriban Əliyeva Birinci xanım adını şərəflə daşıyır, dünyaya müasir Azərbaycan qadınının qürur doğuran obrazını təqdim edir.

AZƏRTAC Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ictimai-siyasi fəaliyyətinin əsas məqamlarına nəzər salıb.

Azərbaycan xalqının böyük sevgisini qazanmış Mehriban xanım Müzəffər Ali Baş Komandan İlham Əliyevin ən yaxın silahdaşı kimi, bu gün onunla çiyin-çiyinə Qarabağın, Şərqi Zəngəzurun dirçəldilməsində öncüllük edir. Onun Vətən və xalq qarşısında daha bir önəmli xidməti Ulu Öndərin ideyalarının həyata keçirilməsi sahəsində göstərdiyi aramsız səylər və çoxsaylı layihələrdir. Sərhəd tanımayan xeyirxahlığı, nəcibliyi Birinci xanım Mehriban Əliyevaya təkcə Azərbaycanda deyil, yaxın və uzaq xaricdə tükənməz məhəbbət qazandırıb. O, həmçinin Azərbaycanda təhsilin, mədəniyyətin, səhiyyənin inkişafı, milli maraqların beynəlxalq aləmdə müdafiəsi, o cümlədən sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun təşviqi istiqamətində yorulmadan çalışır.

Birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə 2004-cü ildən fəaliyyətə başlayan Heydər Əliyev Fondu Ümummilli Liderin ideyalarının reallaşdırılmasında, bu dahi insanın zəngin dövlətçilik irsinin bütün dünyada tanıdılması istiqamətində əvəzsiz xidmətlər göstərir. Xalqımızın xeyriyyəçilik ənənələrinin dirçəldilərək daha geniş miqyas alması bilavasitə Heydər Əliyev Fondunun prezidentinin göstərdiyi şəxsi nümunə nəticəsində mümkün olub. Fond Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artırılması istiqamətində də fəal iştirak edib və edir.

Mehriban xanım, həmçinin beynəlxalq sülh, təhlükəsizlik, mədəniyyətlərarası və dinlərarası dialoq mühitinin formalaşması və möhkəmlənməsi, tarixi mədəni irsin qorunması kimi olduqca vacib məsələlərin həllinə böyük töhfələr verir. Artıq 20 ildir ki, Azərbaycan tarixini və mədəni irsini, ölkəmizlə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün yorulmadan fəaliyyət göstərir. Onun səylərinin nəticəsi olaraq İçərişəhər, o cümlədən Şirvanşahlar Sarayı və Qız qalası, Qobustan qayaüstü rəsmləri, Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi, "Xınalıq və Köç yolu mədəni landşaftı", eyni zamanda, Hirkan meşələri UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Həmçinin muğam və aşıq sənətimiz, "Kamança simli musiqi alətinin hazırlanması və ifaçılıq sənəti", "Dədə Qorqud irsi", Azərbaycan kəlağayı sənəti Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahıya salınıb. Eyni zamanda, Azərbaycan 2019-cu ilin iyulunda UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına uğurla ev sahibliyi edib.



2017-ci il fevralın 21-də Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin edilməsi onun Azərbaycan dövlətçiliyinin inkişafı və möhkəmləndirilməsi naminə zəngin və fədakar fəaliyyətinin, habelə yüksək təşkilatçılıq qabiliyyətinin məntiqi nəticəsi kimi qiymətləndirilir. Mehriban xanımın o vaxt dediyi sözlər yada düşür: "Üzərimə düşən məsuliyyət olduqca böyükdür. Mən Prezidentin etimadını doğrultmalıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadını doğrultmalıyam".

Azərbaycanın iqtisadi inkişafı və xalqımızın rifahı naminə milli məqsədlərə nail olmaqla bağlı üzərinə nəcib missiya və öhdəliklər götürən Birinci vitse-prezident Mehriban Əliyeva ötən müddət ərzində bu yüksək və məsul vəzifədə gördüyü işlərlə dövlətimizin başçısının və xalqımızın etimadını layiqincə doğruldur. Gündəlik fəaliyyətində insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribanlıq meyarlarını əsas götürür, fəaliyyətini məhz bu prinsiplər üzərində qurur, milli-mənəvi dəyərləri daim uca tutur. Onun ömür yolu, sözün əsl mənasında, Vətənə və xalqa xidmət nümunəsidir.

Mehriban Əliyevanın fəaliyyətində əhalinin həssas təbəqələrinin, o cümlədən məcburi köçkünlərin, şəhid ailələrinin, qazilərin problemlərinin həlli xüsusi yer tutur. Təsadüfi deyil ki, yeni yüksək vəzifədə keçirdiyi ilk müşavirəni qaçqın və məcburi köçkün ailələrinin həyat şəraitinin yaxşılaşdırılmasına həsr etmişdi. Həmin müşavirədən dərhal sonra müvafiq tədbirlər planı hazırlandı və real işlər başlandı. Qısa müddətdə yüz minlərlə qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırıldı.

Heydər Əliyev Fondu Vətən müharibəsi zamanı şəhid olan hərbçilərin ailələrini və qazilərimizi də daim diqqətdə saxlayır, onların qayğısına qalır. Fond bu kateqoriyadan olan insanların qayğıları ilə yaxından maraqlanır, onları narahat edən məsələlərin həlli istiqamətində mütəmadi tədbirlər həyata keçirir. Döyüşlərdə yaralanan hərbçilərimiz müalicə və reabilitasiya üçün Türkiyəyə göndərilib, həmçinin sağlamlıqlarını itirmiş bir qrup əsgər və zabit yüksək texnologiyalı protezlərlə təmin edilib.

Torpaqlarımızın azad olunması uğrunda mübarizəyə siyasi-mənəvi dəstək, xalqımızı milli həmrəyliyə səsləyən, şanlı Ordumuzu Qələbəyə ruhlandıran müraciət və çağırışlar, müharibədən sonra isə dövlətimizin başçısı ilə birlikdə Qarabağa çoxsaylı səfərlər, Şuşada möhtəşəm "Xarıbülbül" Musiqi Festivalının təşkili Birinci xanımın xidmətləri sırasında xüsusi yer tutur. Eyni zamanda, Mehriban xanımın təşəbbüsü olan "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" və digər proqramlar təhsilin inkişafında mühüm rol oynayır. 2005-ci ildən icrasına başlanılan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində 100 mindən çox şagirdin təhsil aldığı 500-dən çox məktəb binası inşa olunub və yenidən qurulub. "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində isə 40-dan çox uşaq müəssisəsi əsaslı təmir edilib.

Əhalinin sağlamlığı məsələsi də Mehriban Əliyevanın daim xüsusi diqqət göstərdiyi sahələrdəndir. Onun təşəbbüsü ilə reallaşdırılan "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Tibb müəssisələrinin yenidən qurulması və inşası" kimi bənzərsiz layihələr, bir çox xeyriyyə aksiyaları böyük rəğbətlə qarşılanır, öz müsbət nəticələrini verir. Bu çərçivədə Bakıda müasir Talassemiya Mərkəzi, Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzi, Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün reabilitasiya Mərkəzi, Psixonevroloji Uşaq Mərkəzi və digər səhiyyə ocaqları inşa olunub və ya əsaslı şəkildə yenidən qurulub.

Azərbaycanın Birinci xanımının tapşırığına əsasən aztəminatlı ailələri və xüsusi qayğıya ehtiyacı olan şəxsləri daim diqqətdə saxlayan Heydər Əliyev Fondu bu istiqamətdə də mütəmadi olaraq müxtəlif layihələr həyata keçirir. Mehriban xanım Əliyeva özünün xeyriyyəçilik fəaliyyəti ilə gələcək nəsillərə nəcib bir yolun əsas konturlarını göstərir. Artıq ictimai həyatımızda xüsusi yer tutan xeyriyyəçilik institutu müasir dövrün reallıqları və tələblərinə uyğun olaraq inkişaf etməkdə və genişlənməkdədir.

Azərbaycan həqiqətlərinin, mədəniyyətimizin, dövlətçilik ənənələrimizin, tariximizin dünyada təbliği sahəsində Mehriban xanımın təşəbbüsü ilə məqsədyönlü iş aparılır. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsinin gedişində Azərbaycanın haqlı mövqeyinin nümayişi, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozan düşmənin dinc sakinləri hədəf alan hücumlarının beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində əməli addımlar atılıb. Mötəbər beynəlxalq qurumlarda, dünyanın müxtəlif ölkələrində sərgilər, mədəniyyət gecələri və digər tədbirlər təşkil olunub. Avropa Parlamentinin mənzil-iqamətgahında, Afinada, Kannda Azərbaycan mədəniyyəti günləri keçirilib, Parisdə Azərbaycan Mədəniyyət Mərkəzi açılıb, dünyanın müxtəlif şəhərlərində görkəmli şəxsiyyətlərimizin abidələri ucaldılıb.

Azərbaycanın böyük uğurla ev sahibliyi etdiyi "Eurovision" beynəlxalq mahnı müsabiqəsi, Formula 1, Birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları Mehriban Əliyevanın yüksək təşkilatçılıq bacarığına malik olduğunu üzə çıxardı. Respublikamızda bu mötəbər beynəlxalq tədbirlərin möhtəşəm təşkili hətta inkişaf etmiş ölkələri heyran qoydu. Təsadüfi deyil ki, Mehriban xanım idman aləmində və "Ədalətli oyunlar"ın təbliğində nümunəvi nailiyyətlərinə görə Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin "Xüsusi xidmətlərə görə" medalına layiq görülüb.

Birinci xanımın çoxşaxəli fəaliyyəti təkcə Azərbaycanla məhdudlaşmır, ölkəmizin hüdudlarını aşaraq yaxın və uzaq xaricdə geniş əks-səda doğurur. Onun təşəbbüsü ilə Heydər Əliyev Fondu Vatikanda, Fransa, Pakistan, Bosniya və Herseqovina, Misir, Hindistan və digər ölkələrdə bir sıra önəmli layihələr icra edib.

Mehriban Əliyevanın xoşməramlı fəaliyyəti həm Azərbaycanda, həm də beynəlxalq miqyasda yüksək qiymətləndirilir. Azərbaycanın ən ali dövlət mükafatı olan "Heydər Əliyev" ordeni, eləcə də "Qızıl ürək" beynəlxalq mükafatı, Avropa Olimpiya Komitələrinin Ali ordeni, Fransanın "Şərəf Legionu" ordeni, İtaliyanın "Xidmətlərə görə" Böyük Xaç Kavaleri ordeni, Polşanın "Böyük Komandor Xaçı" ordeni, Rusiyanın "Dostluq" ordeni, UNESCO-nun "Qızıl Motsart" medalı... Bu, Azərbaycanın Birinci vitse-prezidentinin layiq görüldüyü mükafatların heç də tam siyahısı deyil. Mehriban Əliyeva hesab edir ki, ən böyük mükafatı xalqın ona olan sevgisi, inamı və etimadıdır. Onun dediyi kimi, "illər ötdükcə, qarşımıza yeni ideya və planlar çıxdıqca, məqsədlərimiz xaraktercə dəyişir, amma əsas amalımız - Azərbaycan xalqına xidmət etmək amalı dəyişməz olaraq qalır və qalacaqdır".

Mehriban xanım xalqın sevgisi, etimadı ilə öz ömür kitabını yazmaqda davam edir, onu ildən-ilə yeni parlaq və mənalı səhifələrlə zənginləşdirir.

# Rusiya Səhiyyə Nazirliyinin baş psixiatrı ATU-da olub

## Müxtəlif sahələr üzrə əməkdaşlıq perspektivləri müzakirə olunub

**Azərbaycan Tibb Universiteti ilə Rusiyanın tibbi-elmi müəssisələri arasında əlaqələr genişləndirilir. Universitetin rektoru, professor Gəray Gəraybəylinin Rusiya Səhiyyə Nazirliyinin baş psixiatrı, V.P.Serbski adına Milli Tibbi Tədqiqat Psixiatriya və Narkologiya Mərkəzinin direktoru Svetlana Şport ilə görüşündə müxtəlif sahələr üzrə əməkdaşlıq perspektivləri müzakirə olunub.**



Görüşdə Azərbaycan Tibb Universiteti ilə Rusiyanın Milli Tibbi Tədqiqat Psixiatriya və Narkologiya Mərkəzinin ortaq tədqiqat işləri aparması, birgə elmi seminarların, ustad və onlayn dərslərin təşkili, xüsusilə də psixiatriya elminin tədrisi ilə bağlı təcrübə mübadiləsi mövzularında fikir mübadiləsi aparılıb. Görüş iştirakçıları tibb təhsili sahəsində ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduqlarını bildiriblər.

**Avqustun 29-dan sentyabrın 2-dək rezidenturaya boş qalan plan yerlərinə ixtisas seçimi aparılır.**

# Rezidenturanın boş qalan plan yerlərinə ixtisas seçimi aparılır



Dövlət İmtahan Mərkəzindən bildirilib ki, 2024/2025-ci tədris ili üçün rezidenturaya qəbul planı ümumilikdə 685 yerdən ibarət olub. Onlardan 60 yer Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinin məzunları və 40 yer İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının məzunları üçün nəzərdə tutulub.

Artıq əsas yerləşdirmədən sonra qəbul olanların qeydiyyatı başa çatıb. Rezidenturaya qəbul olmuş namizədlərdən 17 nəfər müəyyən olunmuş müddətdə qeydiyyatdan keçmədiyi üçün bu onların yerləşdirildiyi ixtisas üzrə təhsil almaqdan imtina etməsi kimi qiymətləndirilib (bu namizədlər boş qalan yerlər üzrə keçirilən müsabiqəyə buraxılmırlar).

Boş qalan plan yerlərinə qəbul üçün ixtisas seçimi qəbul qaydalarının 4.1-ci və 4.2-ci bəndləri (bax: "Rezidentura" jurnalı N1, 2024, səh.3) nəzərə alınmaqla onlayn qaydada həyata keçirilir və həmin yerlərə müsabiqə yolu ilə yerləşdirmə aparılır.

Müsabiqədə iştirak etmək istəyən namizədlər https://eservices.dim.gov.az/erizerez/ixtisas2/ ünvanına daxil olub ixtisas seçimi edə bilərlər.

# Universitetimizdə praktikada olan əcnəbi tələbələrlə görüş keçirilib

**Tədris Cərrahiyyə Klinikasında İspaniya, Slovakiya, Misir və Qazaxıstandan praktikaya gələn tələbələrlə görüş keçirilib.**



ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev universitetin xarici ali təhsil müəssisələri ilə əməkdaşlığı, müştərək layihələr və mübadilə proqramları barədə ətraflı məlumat verib. Qeyd edib ki, ATU ilə dünyanın bir sıra aparıcı qurumları arasında əməkdaşlığa dair memorandumlar imzalanıb ki, bunun sayəsində həmin ali məktəblərlə uğurlu tələbə mübadiləsinin aparılması mümkün olub. O.İsayev bildirib ki, bu silsilədən olan əlaqələrdən biri də Həkimlər və Təbib Tələbələr Birliyi (AzərMDS) ilə olan aktiv əməkdaşlıqdır və bu əməkdaşlıq çərçivəsində ötən illərdə olduğu kimi, bu il də SCOPE proqramı yolu ilə müxtəlif ölkələrdən olan əcnəbi tələbələr ATU-nun Tədris Cərrahiyyə Klinikasında yay praktikası keçiblər.

Klinikanın direktoru, III Cərrahi xəstəliklər kafedrasının dosenti Əsədulla Sultanov əcnəbi tələbələrin praktika keçməsi üçün yaradılan şərait haqqında danışıb, gələcəkdə də onları burada görməkdən məmnun olacaqlarını bildirib.

Həkimlər və Təbib Tələbələr Birliyinin prezidenti Murad Yusifli görüşdə mübadilə proqramının məqsədi haqqında məlumat verib: "Proqramın əsas məqsədi beynəlxalq mübadilə vasitəsilə tələbələr və tibbi mütəxəssislərin arasında əməkdaşlıq və mədəni əlaqələri genişləndirməkdir. Bu həmçinin tələbələrə beynəlxalq səhiyyə sistemini öyrənməyə imkan yaradır". Mübadilə proqramı sayəsində tələbələr unikal təhsil və mədəni təcrübə qazanırlar. Bunun sayəsində tələbələr digər ölkələrin tibbi və sosial şəraitləri ilə tanış olurlar.

Görüş zamanı əcnəbi tələbələr onlar üçün yaradılmış şəraitdən razı qaldıqlarını bildiriblər. Qeyd ediblər ki, Tədris Cərrahiyyə Klinikasında praktika müddətində maraqlı təlimlərdə iştirak edib, tanınmış həkimlərdən dərs alıb və modern tibbi mulyajlar üzərində işləyiblər. Əcnəbi tələbələr göstərilən mehriban münasibət üçün ATU rəhbərliyi və kollektivinə təşəkkürlərini çatdırıblar.

Qeyd edək ki, görüşdə ATU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov, Rezidentura və Magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov, İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Günel Aslanova iştirak edirdilər. Görüşün sonunda tələbələrə sertifikatlar təqdim olunub.

# Meymunçiçəyindən qorxmaq lazım deyil

## Bununla yanaşı, ATU-nun professoru ölkəmizə gələn əcnəbiləri diqqətdə saxlamağı məsləhət görür

**Son günlər yerli və xarici mətbuatda Mpox viruslar ailəsindən Ro indeksi (yoluxduruculuq qabiliyyəti) yüksək olan yeni Glade 1b ştammının yayılması haqda məlumatlar verilir. Qabaqlayıcı tədbirlər görülməzsə, dünya miqyaslı ağır nəticələrin ortaya çıxa bilməsi ehtimalı da xəbərlərdə istisna olunmur.**

ATU-nun Farmakologiya kafedrasının müdiri, professor Musa Qəniyev narahatlığı nəzərə alaraq, özünün sosial şəbəkə hesabında bu məsələ ilə bağlı fikirlərini bölüşüb. Xatırladıb ki, ingiliscə meymunçiçəyi virusu "Monkeypox virus" adlanır. Mpox onun ixtisar olunmuş adıdır. Yəni Mpox, elə meymunçiçəyi virusu deməkdir. Bu yeni ad ona ÜST-ün tövsiyəsilə 2022-ci ilin noyabr ayında verilib. Odur ki, burada yeni virusun yayılması iddia olunan, narahatlıq doğuracaq bir şey yoxdur.

Professor qeyd edib ki, Glade sözü xəzinə, ocaq, yəni virusun endemik məkanı deməkdir. Glade I Meymunçiçəyi virusunun Mərkəzi Afrika, Glade II virusunun isə Qərbi Afrika ştamları olduğunu bildirən M.Qəniyevin sözlərinə görə, Glade 1b, bəzi ÜST ekspertlərinin söylədiyi kimi, 2022-ci ildə yayılan Glade II-nin deyil, Mərkəzi Afrika ştammının,



yeni Glade I-in mutantıdır. Onun 4 struktur elementindən üçünün - E-örtük təbəqə, N-nukleokapsid və M-membran-, nuklein ardıcıllığı və kəmiyyət sıralanması ana virusdan fərqlənmir, birə-bir eynilikdir: "Sıralanma sırasında nisbi fərqlilik S-spayka zülalında müşahidə edilir. Bu hal letallığın zəifləməsi, Ro indeksinin nisbi artımının təsdiqidir. S-spayka zülalında baş verən "nöqtə mutasiyası" Glade 1b-nin hormonal sistem və kontakt toxumalara affinliyində nisbi fəallığa səbəb olub. Bunu, virusun insandan insana yoluxmasında əsas yolun, kontakt təmas yolu - qucaqlaşmaq, sifətin sifətə toxunması, öpüşmək, intim (xüsusən homoseksual) yaxınlıq olduğunu söyləyən ÜST ekspertlərinin fikir birliyi də təsdiq edir. İddia olunur ki, intim yaxınlıqda yoluxma riski hətta xəstəlikdən sağaldıqdan sonra 12 həftə müddətində saxlanılır".

Professor M.Qəniyev yuxarıda qeyd etdikləri ilə yanaşı, digər xüsusi bir hala görə bu mövzuya təkrar qayıtmasına da aydınlıq gətirib: "Bilirsiniz ki, ali məktəblərdə dərslərin başlanmasına sayılı günlər qalıb. Rəsmi statistikaya görə, yeni tədris ilində dünyanın 93 ölkəsindən 7,7 min tələbə bakalavr, magistr və digər dərəcələr üzrə bizim ölkəmizdə dərslərə qatılacaq. Onların arasında Afrika ölkələrindən (məsələn, Nigeriya) olan tələbələr də var. Odur ki, bütün hallarda sayıqlıq itirilməməlidir".

Bu virusun yayılmasına səbəb olan bir çox "abnormal" ünsiyyət formalarının millətimizə və xalqımıza yad olduğunu söyləyən professor, təəssüf hissi ilə diqqətə çatdırıb ki, biri-birilə görüşərkən qucaqlaşıb sifəti sifətə sürtmək və öpüşmək istisnadır: "Mən bu haqda dəfələrlə yazıb xəbərdarlıq etmişəm. Bir daha bildirirəm ki, tək Mpox deyil, istənilən virus infeksiyasından 90%-95%-dən çox nisbətdə qorunmanın yeganə yolu əks cinslərin, xüsusən kişilərin biri-birilə görüşərkən qucaqlaşıb öpüşməsi kimi vərdişə birdəfəlik son qoyulmasıdır".

Mpox-a gəlincə, hazırda dünyada bu virusa yoluxma 0,0006%, ölüm halı isə 0,00002% nisbətindədir. Yəni bu virusun, endemik ocağından xaric, dünyada hətta epidemiya törətmək ehtimalı belə yoxdur. Azərbaycanda isə bu ehtimal mütləq olaraq sıfır faizdir".

Xatırladaq ki, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin məlumatında da meymunçiçəyinin çox nadir hallarda rast gəlinən zoonoz virus xəstəliyi olduğu, yeni bu xəstəliyin insana əsasən heyvandan keçdiyi bildirilib: "Xəstəliyin inkubasiya dövrü 5-21 gün arasında dəyişə bilər. Xəstəlik adətən 2-4 həftə davam edir. Başlanğıc dövründə qeyd edilən kataral əlamətlər (hərarət, şiddətli başağrı, limfa düyünlərinin böyüməsi) sonradan səpgi dövrünə keçir. Səpgilər eyni inkişaf mərhələsində olmaqla bütün bədəni əhatə edir. Bir neçə gün davam edən səpgi eyni vaxtda qartmaq əmələ gətirməklə, yerində çapıq toxumasının əmələ gəlməsi ilə sağalır.

İnfeksiya insandan insana uzunmüddətli sıx təmas nəticəsində tamlığı pozulan dəri və selikli qişalar vasitəsilə ötürülür. Xəstəliyə xas olan kliniki əlamətlər əmələ gəlməyənə qədər xəstə və ya onunla təmasda olan şəxslər yoluxucu hesab edilmir.

Xəstəlik adətən özünü məhdudlaşdıran xüsusiyyətə malikdir, yəni ağırlaşmayan hallar heç bir müalicə olmadan sağalır. Əksər xəstələrdə meymunçiçəyi yüngül formada keçdiyi üçün, simptomatik müalicə kifayət edir.

Azərbaycan ərazisində bu günədək meymunçiçəyi xəstəliyinə şübhəli hallar qeydə alınmayıb. Bu istiqamətdə Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə əsasən ciddi epidemioloji nəzarət aparılır, yoluxmaya şübhəli şəxslərin aşkarlanması, diaqnostikası və müalicəsi üçün müvafiq resurslar mövcuddur".

# Biruni Universitetinin müəllimi ATU-da akademik fəaliyyət göstərib

**“KA171 Erasmus+ Beynəlxalq Kredit Mobilliyi Proqramı” çərçivəsində Biruni Universitetinin Tibb fakültəsinin Tibbi farmakologiya kafedrasının dosenti, universitet rektorunun köməkçisi Burak Önal Azərbaycan Tibb Universitetinin Farmakologiya kafedrasında akademik fəaliyyət göstərib.**



Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov və kafedra müdiri, professor Musa Qəniyev qonaq müəllimi kafedra əməkdaşlarına təqdim ediblər. B.Önal proqram müddətində Farmakologiya kafedrasının professor-müəllim heyəti üçün “Biruni Universiteti haqqında” və “Farmakologiya fənninin tədrisinə müasir yanaşma” mövzularında seminarlar keçirib, kafedra əməkdaşları ilə fikir və təcrübə mübadiləsi aparıb. O, həmçinin ATU-nun İmtahan Mərkəzində olub və imtahanların keçirilməsi qaydaları ilə tanış olub.

Proqramın sonunda ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev qonaq müəllimlə görüşüb. Görüşdə iki universitet arasında tədris və elmi-tədqiqat sahələrində əməkdaşlıq məsələləri müzakirə edilib. Dosent Burak Önala “Erasmus+ proqramı iştirakçısı” sertifikatı təqdim olunub.

# Əməkdaşımız nüfuzlu nəşrin redaktoru seçilib

**Azərbaycan Tibb Universitetinin Ailə təbabəti kafedrasının dosenti Rəhimə Qabulova nüfuzlu beynəlxalq təşkilat olan Avropa Kardiologiya Cəmiyyətinin Preventiv Kardiologiya Assosiasiyasının (ESC) rəsmi nəşrinin redaktoru seçilib.**



Qeyd edək ki, Assosiasiyanın yüksək reytinqli (impakt faktoru 8.4) “European Journal of Preventive Cardiology” jurnalı ürək-damar xəstəliklərinin səbəbləri və qarşısının alınması, ürək-damar reabilitasiyası və məşq fiziologiyası ilə bağlı bütün elmi, klinik və ictimai səhiyyə fənlərini əhatə edir. Preventiv Kardiologiya Assosiasiyası ürək-damar təbabəti üzrə ən yaxşı təcrübələri toplayıb, bütün dünyaya çatdıran qurumdur.

Assosiasiya dünyanın hər yerindən 30-a yaxın qurumu, milli kardioloji cəmiyyətləri, o cümlədən fərdi olaraq kardiologiyanın bütün sahələrində çalışan alimləri, həkim və tibb bacılarını birləşdirir. Ümumilikdə 100 minə yaxın peşəkarı bir araya gətirən ESC şəbəkəsi ürək-damar xəstəliklərinin təsirinin azaldılması istiqamətində müxtəlif fəaliyyətlər ortaya qoyur. ATU təmsilçisinin də bu nüfuzlu qurumda təmsil olunması, ESC-nin rəsmi nəşrinin redaktoru seçilməsi Azərbaycanın ürək-damar xəstəliklərinin müalicəsi sahəsində əldə etdiyi uğurlu nəticələri təqdim etməyə imkan verir.

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) son hesabatında hepatit viruslarının hər gün 3500 insanın ölümünə səbəb olduğu barədə məlumat öz əksini tapıb. Hesabatda bildirilir ki, bu rəqəmdə Hepatit B virusu 83, Hepatit C isə 17 faiz təşkil edir. 2019-cu ildə 187 ölkədə hepatitlərdən ölənlərin sayı 1,1 milyondan 2022-ci ildə 1,3 milyona çatıb. Hepatit B infeksiyalarının 63 faizi Afrikanın payına düşür.**

# Hepatit virusları uzun müddət orqanizmdə gizli qala bilər

## Professor Sədrəddin Atakişizadə deyir ki, xəstələnməyi gözləmədən infeksiyalara qarşı analiz vermək lazımdır

Bəs ölkəmizdə hepatitlərlə bağlı vəziyyət necədir? Bu istiqamətdə aparılan mübarizə və profilaktik tədbirlər hansı səviyyədədir?

Bizi maraqlandıran bu və digər suallara Azərbaycan Tibb Universitetinin Yoluxucu xəstəliklər kafedrasının professoru Sədrəddin Atakişizadə cavab verib. Professor bildirib ki, bu gün bəzi infeksion xəstəliklər aktual problem olaraq qalmaqdadır: “Müasir dövrümüzdə müayinə, müalicə, diaqnostika üsullarının kifayət qədər inkişaf etməsinə, dərman vasitələrinin tapılmasına baxmayaraq, çox təəssüf ki, bəzi yoluxucu xəstəliklərdə ölümün faizi hələ də yüksək olaraq qalmaqdadır. Belə infeksion xəstəliklərdən parenteral yolla yayılan hepatitləri göstərmək olar”.

Virus hepatitlərinin 7 növü (A, B, C, D, E, F, G ) olduğunu bildirən S.Atakişizadə, qeyd edib ki, bu viruslar qaraciyər hüceyrələrini sevir, orada artıb-çoxalırlar: “A və E hepatitləri fekal-oral, qalan 5-i isə parenteral yolla yayılma xüsusiyyətlərinə malikdir. B və C parenteral yolla daha geniş yayılıb. Bu isə o deməkdir ki, viruslar qanlı müdaxilə, əməliyyat, cərrahi müdaxilə, stomatoloji xidmət və s. zamanı yayıla bilir. Bu gün klinikalarda sterilizasiya işi və profilaktik tədbirlərin dəqiq yerinə yetirilməsinə baxmayaraq, çatışmazlıqlar da qalmaqdadır. Bildiyimiz kimi, dünyaya gələn körpələr üçün ilk həftədən B hepatitinin vaksinasiyası həyata keçirilir. Səbəbi isə odur ki, körpələrin orqanizmində immunitet yaransın və onlar virusa yoluxmasınlar. Bundan başqa, Səhiyyə Nazirliyinin göstərişi ilə hepatit B virusunun vaksinasiyası ildə bir dəfə çoxprofilli klinikalar və rayon Epidemioloji mərkəzləri tərəfindən həyata keçirilir. Həmçinin risk qrupuna daxil olan əhali arasında da vaksinasiya işi aparılır”.



Görülən lazımi tədbirlərə baxmayaraq, professor, Hepatit B və C-nin xeyli yayıldığını təəssüf hissi ilə vurğulayıb. Səbəbini aparılan tədbirlərin vaxtında və düzgün yerinə yetirilməməsi ilə izah edib: “Xroniki xəstəlik olduğundan, əksər hallarda insanlar özlərinin yoluxduqlarından xəbər tutmur. Bəzən stomatoloji və kosmetoloji xidmət göstərən zaman həkimlər bilmədən alətləri yoluxdurur, yoluxmuş alətlərlə digər xəstələri yoluxdurmuş olurlar. Yəqin fikir vermisiz, bərbərxanalarda bərbərlər ülgücdən istifadə edən zaman onu nümayişkəranə şəkildə spirtləyirlər. Guya öz aləmlərində ülgücü dezinfeksiya edirlər. Amma əksinə, virusu məhv etmir, alətə yapışdırır, infeksiya mənbəyi yaradırlar.

Öz növbəsində xanımlar gözəllik salonlarında manikür, pedikür etdirən zaman diqqətli olmalıdırlar. Çünki istifadə olunan alətlərin sterilizasiyası qaydalara uyğun olmayanda, zədəli yerlər vasitəsi ilə birbaşa qanla yoluxma halı baş verir”.

Professor, bəzən donordan qan götürülən zaman qanda virusların yoxlanmasına düzgün riayət edilmədiyini də diqqətə çatdırıb. Əlavə edib ki, ATU-nun Tədris Cərrahiyyə Klinikasında qanın yoxlanması üçün hər cür şərait var, istifadə olunan alətlər qaydalara uyğun sterilizasiyadan keçirilir.

S.Atakişizadə insanların özlərini qorumaları üçün tövsiyələr verib. Onun fikrincə, profilaktik yoxlanışa gedən zaman ildə və ya iki ildən bir infeksiyalara qarşı qandan analiz verməsi məsləhətdir: “Kimsə hepatitə yoluxubsa, amma infeksiyaya qarşı yoxlanmayıbsa, bundan xəbəri yoxdursa, immuniteti zəifləyənədək bu virus onda gizli qalır. İmmunitet aşağı düşən kimi, infeksiya baş qaldırır və qaraciyər hüceyrələrini zədələməyə başlayır. Yalnız o zaman məlum olur ki, yoluxma var. Ona görə də müəyyən müddətdən bir infeksiyalara qarşı analiz vermək lazımdır. Vətəndaşlar müraciət etdikləri yerlərdə alətlərin sterilizasiyasına da mütləq əmin olmalıdırlar”.

Fəaliyyətdə olan klinika və gözəllik salonlarına nəzarətin müvafiq rayonların Gigiyena və epidemiologiya mərkəzləri tərəfindən həyata keçirildiyini bildirən professor, hepatit viruslarının müayinə və müalicəsindən də söhbət açıb: “Əvvəllər bu xəstəliklərin müalicəsinə uzun müddət və ciddi maliyyə xərcləri tələb olunurdu. Amma hazırda vəziyyət dəyişib. Tədris Cərrahiyyə Klinikasında PZR vasitəsilə B və C virusunun qanda miqdarını tam şəkildə müəyyən etmək mümkündür. B və C hepatitinin müalicəsi üçün uzun müddətə və bahalı dərmanlara ehtiyac yoxdur. Belə ki, hər gün bir həb qəbul etməklə C hepatitinin 3 aya, B hepatitinin isə 6 aya qanda miqdarını sıfıra salmaq mümkündür. Bu müayinə və müalicə prosesi klinikamızda həyata keçirilir”.

**Qabil ABDULLAYEV**

# Seminarda antimikrobial idarəçilikdə innovativ sistemlərdən danışılıb

**ATU-nun Rezidentura və magistratura şöbəsi Tədris Cərrahiyyə Klinikasının Klinik-Diaqnostik Laboratoriyası ilə birgə rezidentlər üçün "Antimikrobial idarəçilikdə innovativ sistemlər" mövzusunda seminar keçirib.**



Seminarda açılış nitqi söyləyən Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov bildirib ki, klinikanın laboratoriya şöbəsi xəstələrə yüksək səviyyəli xidmət göstərməklə yanaşı, həm də universitetdə yüksək ixtisaslı kadrların hazırlanması işini həyata keçirir. O, günümüzdə artan antibiotik rezistentliyi və bununla mübarizənin əhəmiyyətindən danışıb. Empirik müalicədən xəstəyə spesifik müalicəyə keçidin antibiotik rezistentliyi azaltdığını, bunun üçün mütləq paralel olaraq nümunə materialının kultivasiyaya göndərilməli olduğunu bildirib.

Seminarda iştirak edən Bioloji kimya kafedrasının müdiri, professor Gülnarə Əzizova laborator diaqnostik metodların əhəmiyyətindən danışıb. O, infeksion xəstəliklərdə dəyişən biokimyəvi göstəricilərdən və bu haqda apardıqları elmi-tədqiqat işlərindən ətraflı bəhs edib. Süni intellektin müasir laborator təbabətdə əhəmiyyətini vurğulayaraq seminarın işinə uğurlar arzulayıb.

Sonra Klinik-Diaqnostik Laboratoriyanın şöbə müdiri Leyla Həşimova qlobal ictimai sağlamlıq problemi olan antibiotik rezistentlikdən söhbət açıb. Bildirib ki, Dünya İqtisadi Forumunun 2021-ci il Qlobal Risklər Hesabatında yoluxucu xəstəliklər əsas qlobal risklər arasında birinci yeri tutub. Əlavə edib ki, əgər bunun qarşısı alınmazsa, 2050-ci ildən etibarən hər il 10 milyondan çox insanın ölümünə səbəb olacağı təxmin edilir.

Sözünə davam edən şöbə müdiri xəstəxanada antibiotik rezistentliklə mübarizədə multidisiplinar yanaşmanı dəstəkləyən "Antimikrobial İdarəçilik Proqramı"nın qurulmasının vacibliyini vurğulayaraq, bu proqramda İDSA protokollarına uyğun olaraq mikrobioloqun vəzifələrini izah edib. Avtomatlaşdırılmış sistemlər antibiotik həssaslıq test nəticələrinin verilməsində fenotip əsaslı "şərhli oxuma" edərək həm zamana qənaət edir, həm də doğru MİK (Minimal İnhibibsiya Konsentrasiyası) verir. Doğru zamanda, doğru xəstəyə, doğru dozada təyin olunan antibiotik isə həyat qurtarır.

Seminarda, TCK-nın həkim-rezidentləri ilə yanaşı, Ə.Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun, Kliniki Tibbi Mərkəzin və Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun həkim-rezidentləri də iştirak ediblər.

Seminarın sonunda mövzu ətrafında geniş diskussiyalar aparılıb. Tədbirdə ənənəvi seminarların yeni tədris ilində də davam etdiriləcəyi bildirilib.

# Tarixi böyük, bu günü müasir kafedra

## Tibbi mikrobiologiya və immunologiya kafedrasında bütün fakültələrin tələbələrinə və kursantlara, rezident və magistrantlara dərslər keçilir

**"Əsası Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsində qoyulan Tibbi mikrobiologiya və immunologiyanın tədrisinə 1920-ci ildə başlanılıb. Hələ o zamanlar bu fəndən dərslər Patoloji anatomiya kafedrasının nəzdində olan Mikrobiologiya və epidemiologiya kursunda keçirilirdi. Sərbəst Mikrobiologiya və epidemiologiya kafedrası 1926-cı ildə professor P.Zdrodvskinin rəhbərliyi ilə fəaliyyətə başlayıb". Bunları ATU-nun Tibbi mikrobiologiya və immunologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor Həqiqət Qədirova kafedranın dünəni və bu günündən bəhs edərkən deyib.**

Həqiqət xanım bildirib ki, böyük tarixi inkişaf yolu keçən bu kafedraya müxtəlif dövrlərdə görkəmli alimlər rəhbərlik edib. Onun sözlərinə görə, müdir seçildiyi 2019-cu ildən kafedrada yenidənqurma işlərinə başlanılıb və kafedranın maddi-texniki bazasının gücləndirilməsi, tədrisin keyfiyyətinin yüksəlməsi, həmçinin elmi-tədqiqat işlərinin səviyyəsinin artırılması məqsəd kimi qarşıya qoyulub: "COVİD-19 pandemiyası 2020-2021-ci illərdə yenidənqurma işlərinin bir qədər ləngiməsinə səbəb olsa da, kafedra əməkdaşlarının birgə səyi ilə xeyli zəruri işlər görülüb. Belə ki, kafedrada 2-ci mühazirə zalı təşkil edilib və tədris laboratoriyalarının sayı artırılaraq 16-ya çatdırılıb. Hər 2 zalda və bütün məşğələ otaqlarında kompüter və multimedia sistemləri quraşdırılıb. Tələbələrin mikrobioloji tədqiqatları sərbəst aparmaları üçün 16 məşğələ otağı müasir mikroskoplar və laborator dəstlər ilə təchiz edilib. Onlardan 3-də yeni laborator mebel quraşdırılıb, digərlərində isə ilin sonuna qədər quraşdırılması nəzərdə tutulur.



Əməkdaşların, tələbələrin, magistr və rezidentlərin müasir səviyyədə mikrobioloji tədqiqatlar apara bilməsi üçün kafedranın elmi-tədqiqat laboratoriyası yenidən qurularaq ən müasir avadanlıqla təchiz olunur. Belə ki, kafedrada indiyə qədər olmayan, lakin böyük ehtiyac duyulan lüminessent mikroskop, invert mikroskop, immunferment analizlərin aparılması üçün yeni müasir cihaz, polimeraz zəncirvari reaksiyasının aparılması üçün termocikler, təhlükəsizlik dolabları, sentrifuqalar, temostatlar, sterilizatorlar, distillyatorlar və bir çox laborator ləvazimatlar alınıb və digər aparatların da gələcəkdə alınması gözlənilir".

Sözünə davam edən müsahibimiz vurğulayıb ki, kafedrada universitetin bütün fakültələrinin tələbələrinə və kursantlarına, eləcə də rezidentlərə və magistrantlara tibbi mikrobiologiya, immunologiya, parazitologiya, mikologiya, virusologiya, sanitar və klinik mikrobiologiya fənləri Azərbaycan, rus və ingilis dillərində tədris edilir: "Burada tələbələr, magistrantlar və rezidentlər insanda xəstəlik törədən mikroorqanizmlərin xüsusiyyətlərini, bu xəstəliklərin patogenezini və mikrobioloji diaqnostikanı öyrənir, spesifik müalicə və profilaktika prinsipləri ilə tanış olurlar.

Dünyada və ölkəmizdə infeksion patologiyanın tendensiyalarını nəzərə alaraq və universitetin yeni tədris sisteminə keçməsi ilə əlaqədar hər il tədris proqramlarına müvafiq əlavələr və dəyişikliklər edilir. Buna görə də yeni qaydada sillabuslar və tədris proqramları hazırlanır. Müvafiq olaraq, kafedra əməkdaşları tərəfindən 7 yeni dərslik və dərs vəsaitləri hazırlanıb.

Onu da qeyd edim ki, 2022-23-cü tədris ilindən başlayaraq, kafedrada ilk dəfə "Mikrobiologiya" ixtisası üzrə magistratura pilləsində tədrisə başlanılıb. Hazırda 10 magistr dissertasiya işləri üzərində çalışır, onlardan 5-i bu tədris ilin sonunda dissertasiya işlərini müdafiə edəcək.

Kafedranın elmi-tədqiqat işi klinik əhəmiyyətli və səhiyyə xidmətləri ilə əlaqəli infeksiya törədicilərinin aşkarlanmasına, onların əsas xüsusiyyətlərinin, yayılmasının, antimikrob preparatlara davamlılığının öyrənilməsinə və onların mikrobioloji diaqnostikasının, spesifik müalicə və profilaktikasının səmərələşdirilməsinə yönəldilib. Bundan əlavə, kafedranın elmi fəaliyyəti müxtəlif təbii və sintetik preparatların antimikrob xüsusiyyətlərinin öyrənilməsini də əhatə edir. Kafedra əməkdaşları yüzlərlə preparatın, o cümlədən Azərbaycan florasından alınan maddələrin antimikrob xüsusiyyətlərini tədqiq ediblər".

Professor bildirib ki, kafedrada bir sıra elmi-tədqiqat işlərinin aparılması Türkiyə, AMEA və Səhiyyə Nazirliyinin elmi-tədqiqat institutları, ATU-nun və BDU-nun bəzi kafedraları, eləcə də özəl tibb mərkəzləri ilə müqavilələr əsasında müştərək olaraq həyata keçirilir. Buna misal olaraq, Türkiyənin Yıldız-Teknik Universitetinin Biotexnologiya və biomühəndislik şöbəsinin laboratoriyasını, AMEA-nın Elmi-Tədqiqat Mikrobiologiya, ET Botanika, ET Neft-kimya Prosesləri, ET Polimer Materiallar institutlarını, ET Kimya İnstitutunun Sumqayıt filialını, SN Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutunu, Bakı Dövlət Universitetinin Üzvi kimya kafedrasını, ATU-nun Tədris Terapevtik və Tədris Cərrahiyyə klinikalarının laboratoriyalarını, Əczaçılıq texnologiyası və idarəçiliyi, Əczaçılıq kimyası, Farmakoqnoziya və başqa kafedralarını, Referans Klinik Laboratoriya Mərkəzini göstərmək olar.

Kafedrada 23 nəfər professor-müəllim heyətinin olduğunu deyən kafedra müdiri bildirib ki, hazırda burada 6 professor, 6 dosent, 8 baş müəllim, 3 assistent çalışır: "Əməkdaşlarımızın 20 nəfəri elmi dərəcəlidir, 2 nəfərin elmi dərəcəsinin təsdiqi üçün sənədləri AAK-a göndərilib. Bundan əlavə 5 doktorant, 7 dissertant və 10 magistr dissertasiya işi üzərində işləyir. 14 rezident mikrobiologiya üzrə ixtisasını artırır.

Kafedramızın əməkdaşları Tələbə Elmi Cəmiyyətinin üzvü olan gənc tədqiqatçıların işlərinə də yaxından köməklik edirlər. Son 5 ildə TEC-in konfranslarında 58 tələbə mikrobiologiya üzrə apardığı elmi-tədqiqat işləri haqqında məruzə ilə çıxış edib və onlardan 23-ü diplomlarla təltif olunub.

Son 5 ildə əməkdaşlarımız tərəfindən 470 elmi iş nəşr olunub ki, onların 7-si dərslik, 2-si metodik tövsiyə şəklində, 178 məqalə (56-sı xaricdə, 127-si ölkədə), 278 tezis (73-ü xaricdə, 205-i ölkədə), 12-si isə impakt faktoru yüksək olan jurnallarda çap edilib".

Kafedranın ictimai işlərdə də aktiv olduğunu söyləyən Həqiqət xanım deyib ki, milli bayram və hüzn günləri, eləcə də qocaman əməkdaşların yubileyləri və təqaüdə çıxmaları kimi tədbirlərin keçirilməsi kafedrada artıq bir ənənəyə çevrilib: "Azərbaycanın tarixinə qızıl hərflərlə yazılan "Zəfər günü" kafedramızda xüsusilə qeyd olunur. Bu münasibətlə kafedrada




Qələbəyə və İkinci Qarabağ müharibəsində şəhid olan hərbi həkimlərə həsr edilmiş stendlər təşkil olunub, veteranların və qazilərin iştirakı ilə vətənpərvərlik mövzusunda tədbirlər keçirilib. Müharibədə şəhid olan hərbi həkimlərin ailələrinə xüsusi diqqət və qayğı göstərilir. Bayram günlərində Fakültə Həmkarlar Təşkilatı və kafedranın qrup Həmkarlar Təşkilatının dəstəyi ilə əməkdaşlarımız şəhidlərin ailə üzvlərini ziyarət edir".

**M.ƏLƏKBƏRLİ**

# Uşaqlarda hormonal problemlərə getdikcə daha çox rast gəlinir

## İlsur Novruzov: Endokrin pozulmalar - hormonal balans, böyümə, metabolizm və cinsi inkişaf məsələlərini əhatə edir



**"Uşaqlarda hormonal problemlər klinik müayinə, diaqnozun qoyulması və uzunmüddətli müalicə zamanı xüsusi diqqət tələb edir. Dünyanın və Azərbaycanın pediatrik populyasiyasında geniş yayılmış hormonal problemləri böyümə hormonu əskikliyi, anadangəlmə böyrəküstü vəz hiperplaziyası, tiroid vəzi problemləri, şəkərli diabet və cinsi inkişaf pozulmaları təşkil edir". Bunu II Uşaq xəstəlikləri kafedrasının assistenti, uşaq endokrinoloqu İlsur Novruzov uşaqlarda hormonal problemlərdən danışarkən söyləyib.**

O bildirib ki, uşaqlarda endokrin pozulmalar hormonal balans, böyümə, metabolizm və cinsi inkişaf ilə birlikdə geniş bir spektrumdan ibarətdir. Bu pozulmalar uşaqlıq və yeniyetməlik dövrünün müxtəlif mərhələlərində ortaya çıxa və diaqnoz ilə müalicə baxımından həkimlərə müəyyən çətinliklər yarada bilər: "Böyümə hormonu əskikliyi uşaqlarda ən geniş yayılmış endokrin pozulmalardan biridir. Hipofiz vəzidən yetərsiz miqdarda boy hormonu ifrazı ilə xarakterizə olunur. Boy hormonu əskikliyinin etiologiyası idiopatik, anadangəlmə və ya qazanılma səbəblərə bağlı ikincili ola bilər. Klinik əlamətlər arasında qısa boy, sümük inkişafının ləngiməsi və pozulmuş böyümə sürətinə rast gəlinir. Diaqnoz xarakteristik hormonal analizlərə və böyümə hormonu stimulyasiya testlərinə dayanır. Müalicə ümumilikdə rekombinant böyümə hormonu ilə aparılır. Bununla birlikdə nəticələrin dəyərləndirilməsi, optimizə edilməsi, əlaqəli əskikliklərin düzəldilməsi və metabolik, sümük inkişafının pozulmaları kimi potensial ağırlaşmaların izlənməsini tələb edir".

Mütəxəssisin sözlərinə görə, anadangəlmə böyrəküstü vəz hiperplaziyası kortizol biosintezində yer alan fermentlərdəki mutasiyalar səbəbi ilə meydana gələn autosom-resessiv pozulmaların bir qrupunu təşkil edir. Ən geniş yayılmış forma, 21-hidroksilaza əskikliyi kortizol sintezindəki pozulmaya və artıq miqdarda adrenal androgen sintezinə səbəb olur. Klinik əlamətlər ferment əskikliyinin formasına bağlı olaraq dəyişir və duz itkisi krizləri, qadın cinsiyyətinə xarakter olmayan genital üzvlər və hər iki cinsdə virilizasiya kimi əlamətlərlə xarakterizə olunur. Diaqnoz xarakteristik hormonal testlər və genetik analizlərlə aparılır. Adrenal krizlərin qarşısını almaq, böyümə və inkişafı optimizə etmək üçün erkən qlükokortikoid əvəzedici terapiyasının başladılması əsasdır.

Sözünə davam edən həkim vurğulayıb ki, tiroid vəz pozulmaları hipotireoidizm, hipertireoidizm, autoimmun tireoidit kimi bir neçə patologiyanı əhatə edir: "Bu pozulmalar uşaqlarda böyümə, metabolizm və neyroinkişafa önəmli dərəcədə təsir edir. Anadangəlmə hipotireoidizmin yaratdığı qalıcı nevroloji pozulmaların qarşısını almaq üçün tez bir zamanda diaqnoz və tiroid hormonun əvəzedici terapiyasının başladılması gərəkdir. Eləcə də, hipertireoidizm taxikardiya, çəki itkisi və davranış pozulmaları kimi əlamətlərlə ortaya çıxa bilər və tiroid hormonunun pozulmaları, kardiyak aritmiyalar kimi ağırlaşmaların qarşısını almaq üçün diqqətli bir dəyərləndirmə və nəzarətə ehtiyac var.

Bundan başqa, şəkərli diabet pozulmuş insulin sintezi və ya mübadiləsi səbəbi ilə hiperqlikemiya ilə xarakterizə olunan xroniki metabolik pozulmadır. I tip şəkərli diabet uşaqlarda daha üstün olmasına baxmayaraq, II tip şəkərli diabetin xüsusilə piylənməsi olan yeniyetmə uşaqlarda artan intensivliyi görülməkdədir. Pediatrik diabetin təqibi, insulin terapiyası, qidalanma dəyişiklikləri və qanda qlükoza səviyyələrinin davamlı izlənilməsi də daxil olmaqla ümumi bir yanaşma tələb edir. Həmçinin qlükohemoqlobinin kontrolunun optimizə edilməsi və uzun müddətdə ağırlaşmalarının qarşısının alınması önəmlidir. Cinsi inkişaf pozulmaları, xromosomal, qonadal və ya fenotipik cinsiyyətin atipik inkişafı ilə xarakterizə bir qrup vəziyyətdən ibarətdir".

İ.Novruzov əlavə edib ki, bu pozulmalar diaqnozun qoyulmasında və psixososial dəstəkdə bəzi çətinliklər yaradır: "Xəstəliklərin dəyərləndirilməsi - ümumilikdə altda yatan səbəbi müəyyən etmək və müalicəni təyin etmək üçün hormonal testlər, instrumental müayinələr, genetik analizlərin kombinasiyasını özündə birləşdirir. Təqib strategiyaları, hormon əvəzedici terapiyası, cərrahi müdaxilələr və psixoloji dəstək üçün konsultasiyalara ehtiyac ola bilir.

Nəticə etibarilə uşaqlarda bu kimi hormonal pozulmaların sayı dünyada və bizdə hər il artmaqda davam edir. Buna görə də bu pozulmaların və ağırlaşmaların qarşısını almaq üçün uşaqların hər il pediatr, endokrinoloq tərəfindən davamlı kontrol müayinədən keçirilməsi lazımdır. Xəstəliyin vaxtında aşkarlanması, erkən diaqnozun qoyulması və vaxtında müalicəyə başlanması müsbət nəticələr alınması baxımından vacibdir".

**Neyroreabilitasiya – müxtəlif etiologiyalı sinir sistemi zədələnmələrinin bərpasına yönəlmiş tədbirlər kompleksidir. Müasir dövrdə neyroreabilitasiya tibbi və sosial yardımın prioritet istiqamətlərindən biri hesab olunur. Bu barədə ATU-nun Fizioterapiya və tibbi reabilitasiya kafedrasının professoru Sədaqət Hüseynova mətbuata müsahibə verib. Həmin müsahibənin aktuallığını nəzərə alıb "Təbib" qəzetinin oxucularına da təqdim edirik.**

# Azərbaycanda neyroreabilitasiya: hazırki vəziyyət və inkişaf perspektivləri

## Professor Sədaqət Hüseynova: Düzgün aparılmış neyroreabilitasiya nəticəsində xəstələr yenidən aktiv sosial və iş həyatına dönə bilərlər



**- Neyroreabilitasiya nədir və onun əsas məqsədi hansılardır?**

- Neyroreabilitasiya və ya nevroloji profilli xəstələrin reabilitasiyası tibbi reabilitasiyanın xüsusi bir hissəsi olub, bir elm sahəsi kimi son zamanlarda formalaşıb. 1996-cı ildə Nyu-Kastlda (Böyük Britaniya) nevroloji reabilitasiya üzrə ilk dünya konqresi keçirilib.

Neyroreabilitasiyanın əsas məqsədi insanın həyati funksiyalarının bərpasına, mübadilə proseslərinin normallaşdırılmasına və patoloji durumlarda, geridönməz proseslərdə adaptasiya sisteminin möhkəmləndirməsinə yardım üçün fiziki və psixi metodlardan, medikamentoz müalicə üsullarından istifadə etməkdən ibarətdir. Neyroreabilitasiya aparan zaman pasiyentlərin itirilmiş funksiyalarının həqiqi bərpasına çalışmaq lazımdır. Neyroreabilitasiyada bu səviyyə ən yüksək hesab olunur. Belə ki, pozulmuş funksiyalar ya tam bərpa olunur və ya ilkin vəziyyətə maksimal yaxınlaşır.

**- Neyroreabilitasiyanın kontingenti kimlərdir?**

- Hal-hazırda ədəbiyyatda neyroreabilitasiyanın hansı kontigenti əhatə etdiyi tam aydın deyil. Uzun müddət sinir sisteminin demielinizasiyaedici və degenerativ xəstəliklərinin neyroreabilitasiya üçün göstəriş olması mübahisəli olub. Lakin artıq bu günə neyroreabilitasiyanın istifadəsi üçün əsas nozoloji formaların siyahısı müəyyənləşdirilib: insult, baş və onurğa beyninin travmaları, periferik sinirlərin zədələnmələri, uşaq serebral iflici, dağınıq skleroz, Parkinson xəstəliyi, Hantinqton xəstəliyi, hərəki neyron xəstəliyi (yan amiotrofik skleroz, proqressivləşən bulbar iflic, proqressiv əzələ atrofiyası), sinir sisteminin irsi xəstəlikləri (torsion distoniya, beyincik ataksiyaları), polineyropatiyalar, əzələ xəstəlikləri, vertebrogen nevroloji sindromlar.

Əlbəttə, müxtəlif xəstəliklərdə neyroreabilitasiyanın məqsəd və vəzifələri müxtəlifdir. Belə ki, artıq formalaşmış nevroloji defektlərdə (məsələn: insult, baş və onurğa beyninin travmaları) və proqressivləşən, irsi xəstəliklərdə reabilitoloji yanaşmalar fərqlidir. Birinci qrup xəstəliklərdə reabilitasiyanın əsas məqsədini xəstəlik və travma nəticəsində itirilmiş funksiyaların tam bərpası, əgər bu real deyilsə, sağlamlıq imkanları məhdud insanların fiziki, psixi və sosial imkanlarının optimal istifadəsi, onların cəmiyyətə daha adekvat inteqrasiyası təşkil edir. İkinci qrup xəstəliklər üçün isə neyroreabilitasiyanın məqsədi xəstəliyin əsas əlamətlərinin azaldılması, fəsadların profilaktika və müalicəsi, funksional pozuntuların korreksiyası, mövcud nevroloji defisitə uyğunlaşma, fiziki yükə



tolerantlığın yüksəldilməsi, həyat keyfiyyətinin yaxşılaşdırılması, sosial aktivliyin artırılmasıdır.

**- Neyroreabilitasiyanın mexanizmləri və mərhələləri barədə fikirləriniz maraqlı olardı.**

- İtirilmiş funksiyaların həqiqi bərpasını təmin edən əsas mexanizm inaktivləşmiş sinir elementlərinin onların stimulyasiyasına yönəlmiş metodlardan istifadə etməklə aktivləşdirilməsidir. Baş beynin əhəmiyyətli destruktiv zədələnmələri zamanı funksiyaların bərpası saxlanmış funksional sistemlərin kompensasiyası hesabına baş verir. Bu proses sinir mərkəzlərinin plastikliyi və ayrı-ayrı bölmələr arasında çoxşaxəli anatomik əlaqələrlə təmin olunur. Beynin plastikliyi xarici və daxili faktorların təsiri altında sinir toxumasının struktur və funksional təşkilini dəyişə bilmək imkanlarıdır və o, əvvəl qeyri-aktiv olan mexanizmlərin fəallaşması, saxlanılmış neyronların sprutinqi, yeni sinapsların yaranması, sinapsların emodelizasiyası, neyronal zəncirlərin reorqanizasiyası ilə reallaşır.

Ümumiyyətlə, tibbi və sosial reabilitasiya həyata keçirərkən yadda saxlamaq lazımdır ki, əlilliyə səbəb olan ağır nevroloji xəstəliklər təkcə xəstələrin somatonevroloji statusuna qısamüddətli təsir göstərmir, həm də uzunmüddətli əlillik və sosial dezadaptasiyaya səbəb olur. Odur ki, neyroreabilitasiya xəstənin vəziyyətindən asılı olaraq üç mərhələdə həyata keçirilir. I mərhələ xəstəliyin kəskin dövründə reanimasiya və intensiv terapiya şöbələrində, əks-göstərişlər olmadıqda, II mərhələ erkən bərpa dövrünə, gec bərpa dövrünə, qalıq əlamətlər dövrünə düşərək stasionar reabilitasiya şəraitində, III mərhələ isə erkən bərpa, gec bərpa və qalıq əlamətlər dövrlərində ambulator reabilitasiya və ya ev şəraitində aparılır.

**- Neyroreabilitasiya nəyə görə erkən başlanılmalıdır?**

- İnsultdan, travma və cərrahi əməliyyatlardan sonra reabilitasiyanın erkən başlanmasının beş başlıca üstünlüyü var: Effektivlik – reabilitasiya nə qədər erkən başlanarsa, o qədər çox müsbət nəticə əldə etmək olar. İdealda reabilitasiyanı hələ reanimasiya şöbəsində başlamaq, əgər belə imkan yoxdursa, xəstənin vəziyyəti stabilləşən kimi mütəxəssislərə müraciət etmək lazımdır. Belə ki, nevroloji sindromların bərpasının ən yüksək səviyyəsi xəstəliyin ilk 6 ayına düşür və bu dövrdə insanın itirilmiş funksiyalarının bərpası üçün daha çox şansı olur.

Təhlükəsizlik – erkən başlanmış reabilitasiya ağır fəsadların – dərin venaların trombozu, durğunluq pnevmoniyası, yataq yaraları, osteoporoz - ehtimalını minimuma endirir. Əgər insanda insult olubsa, aktiv gimnastikasız və dərmanlarsız onda təkrar insult riski yüksək olur.

Müstəqillik – bütün reabilitasiya prosesi insanın başqa adamların köməyinə ehtiyacdan azad olmasına, müstəqilliyinə yönəlir.

Mental sağlamlıq qayğısı – erkən reabilitasiya baş vermiş hadisəni anlamağa və yaxınlarla münasibəti saxlamağa kömək edə bilir. Sağlamlıq problemləri olan insanlar həyəcan və depressiyaya daha çox meyilli olurlar. Bu işdə psixoloqun yardımı pasiyentin şikayətlərinin aradan qaldırılmasına və onun həyat məqsədlərinin yenidən müəyyənləşdirilməsinə yardım edə bilir.

Günlük həyata qayıdış – neyroreabilitoloji komanda xəstəlik nəticəsində yaranan bütün pozuntularla işləyir: hərəkətlərin, udmanın, nitqin, yaddaşın, kiçik çanaq üzvləri pozuntularının bərpası və məişətdə müstəqil davrana bilmək. Düzgün aparılmış neyroreabilitasiya nəticəsində xəstələr yenidən aktiv sosial və iş həyatına dönə bilərlər.

**- Azərbaycanda neyroreabilitasiyanın hazırkı durumu və perspektivləri necədir?**

- Məlumdur ki, neyroreabilitasiya komanda işidir. Hazırda ölkənin aparıcı dövlət və özəl tibb müəssisələrində neyroreabiliatsiya komandası üçün yetərincə mütəxəssislər – fizioterapevtlər, müalicə bədən tərbiyəsi üzrə mütəxəssis və təlimçilər, psixoloqlar, loqopedlər, sosial işçilər fəaliyyət göstərirlər. Bu komandada iştirak etməli olan erqoterapevtlərin sayı respublikada çox azdır. Bu da bu cür kadrların Azərbaycan universitetlərində hazırlanmaması ilə əlaqədardır. Səhiyyə Nazirliyi və onun bu sahədə olan ekspertlərinin əsas vəzifəsi mövcud kadrlardan istifadə etməklə neyroreabilitasiya işini müasir tələblərə uyğun şəkildə təşkil etməkdən ibarətdir. Bu işi həm paytaxt klinikalarında, həm də bölgələrdə genişləndirməyə və mökəmləndirməyə ehtiyac var. Bunun üçün biz həm ölkənin bu sahədə olan aparıcı müəssisə və kadrlarından, həm də beynəlxalq qurumların – Ümumdünya Neyroreabilitasiya və Avropa Neyroreabilitasiya federasiyalarının imkanlarından istifadə etməliyik. Bu məqsədlə hazırda mütəxəssislərimiz Azərbaycan-Avstriya Neyroreabilitasiya proqramı üzrə Avstriya və Polşanın klinikalarında təcrübə keçirlər. Bu proqram çərçivəsində biz insultun neyroreabilitasiyası üzrə birgə elmi-tədqiqat işinin başlanması üzərində çalışırıq.

## Bakıda beynəlxalq tədbirlər baş tutub



**Ötən ay Bakıda Dünya Neyroreabilitasiya və Avropa Neyroreabilitasiya federasiyalarının regional görüşü, həmçinin Nevrologiya üzrə 19-cu Beynəlxalq Yay Məktəbi keçirilib.**

Avropa və Asiya ölkələrindən tanınmış mütəxəssislərin iştirak etdiyi konqresdə əsas müzakirə mövzusu dünyada neyroreabilitasiyanın inkişafı, insult keçirmiş xəstələrin reabilitasiyasının təşkili istiqamətində yeniliklərin tətbiqi olub.

Konqresə qatılan azərbaycanlı mütəxəssislər hazırda ölkədə insultun diaqnostikası, müasir müalicəsi və reabilitasiyasının vəziyyəti haqqında məlumat veriblər. Eyni zamanda Azərbaycanda neyroreabilitasiyanın təşkilinin səviyyəsini yüksəltmək yolları, bu istiqamətdə kadr hazırlığının əhəmiyyəti barədə fikir mübadiləsi aparılıb.

Konqresə Dünya Neyroreabilitasiya Federasiyasının üzvü kimi qatılan ATU-nun professoru Sədaqət Hüseynova "İnsultdan sonraki xəstələrin neyroreabilitasiyasının Azərbaycanda cari vəziyyəti" mövzusunda məruzə ilə çıxış edib və geniş dəyirmi masa müzakirəsində xüsusi fəallıq göstərib.

Dünyadan bizimkilər

**Azərbaycan Tibb Universitetində təhsil alan əcnəbi tələbələr arasında İran İslam Respublikasının vətəndaşları da az deyil. Ənənəvi rubrikamızda bu dəfə onların ölkəmiz, xalqımız, ATU həyatı, tədris prosesi, müəllim-tələbə münasibətləri və s. ilə bağlı təəssüratlarını öyrəndik.**

# "Azərbaycanda hər yerdə özümüzə qarşı hörmət görürük"

## İranlı tələbələrimiz Bakının təhlükəsizliyindən, milli mətbəximizdən və ATU-da tədrisin keyfiyyətindən danışırlar

### "Bakı bizim şəhərdən daha təhlükəsizdir"

**Nouşi Eyni** Azərbaycan Tibb Universitetinin II Müalicə-profilaktika fakültəsinin 1-ci kurs tələbəsidir. Ölkəmizə nədən təşrif gətirdiyini, niyə universitetimizi seçdiyini belə izah edir: "Həkim olmaq arzusuna düşməyimin çox qəribə bir tarixçəsi var. Avtomobil qəzası keçirməyim bu peşəyə həvəsimin artmasına səbəb oldu. Belə ki, qəza zamanı xəsarətlər aldım, bir müddət xəstəxana şəraitində müalicə olundum. Xəstəxanada işləyən xanım həkimlərdən birinin adı Nouşi idi, adaşımıydı. Onun ağ xalatda palataya daxil olması, xəstələrlə xoş rəftarı, nəzakətli davranışı diqqətimi çəkdi. Məndə onun kimi bir həkim olmaq istəyi baş qaldırdı. Valideynlərimə dedim ki, gələcəkdə həkim olmaq niyyətindəyəm. Amma hansısa bir xarici ölkədə təhsil almaq istəyirdim. Özüm İranın Astara şəhərində anadan olmuşam. Milliyyətcə talışam. Bu səbəbdən Azərbaycan dilini bilmirdim. Atam arzumu bilincə, məsləhət gördü ki, madam, ölkədən kənarda oxumaq istəyirsən, onda Azərbaycan daha münasibdir. Buna görə Azərbaycan dilini öyrən. Astarada "Bakı" restoranı fəaliyyət göstərirdi. Dil öyrənmək üçün restorana işə düzəldim. Qısa zamanda həm dilinizi, həm də bəzi milli yeməklərinizi bişirməyi öyrəndim. Dadlı yeməkləriniz var. Dolma, plov, paxlavanız çox dadlıdır. Paxlava bişirə bilməsəm də, dolma və plov bişirməyi bacarıram.

Astarada "Rus bazarı" deyilən bir bazar var. Orada azərbaycanlılar çox idi. Dil öyrənmək üçün həm də onlarla sıx əlaqə qurdum. Azərbaycan dilini öyrənməkdə mənə xeyli kömək etdilər. Hazırda dil baxımından elə bir ciddi problemim yoxdur".

Nouşi Tibb Universitetinə qəbul olunanda sevincinin həddi-hüdudu olmayıb. Hazırlıqda oxuyanda sinif nümayəndəsi olub. Bakıya gəlməyi, universitetimizi seçməyi üreyincədir: "6 il Bakıda yaşayacağam. Paytaxtınızı çox bəyəndim. Burada qohumlarım olmasa da, özümü qərib hiss etmirəm, münasibətdə olduğum insanlar sanki mənim üçün doğmadırlar. Quru yolu ilə bizdən







Bakıya 3 saatlıq yoldur. Amma sərhəd bağlı olduğundan ailəmin yanına gedə bilmirəm. 7 aydır ailəmi görməmişəm, yalnız telefon vasitəsi ilə əlaqə saxlayıram. Yayda da getmək fikrim yoxdur. Bakını sevdiyim üçün burada qalacağam. Ailəm isə yayda bura gəlməyi planlaşdırır. Bakı təhlükəsiz şəhərdir. Hətta mənim doğulduğum şəhərdən belə təhlükəsizdir. Bəzən rəfiqələrimlə şəhəri gəzir, axşam yataqxanaya bir az gec, saat 9-10-da qayıdıram. Elə olur ki, atam mənimlə telefonla danışanda harda olduğumu soruşur, deyirəm ki, avtobusdayam və ya şəhərdəyəm, bir azdan yataqxanada olacam. Narahat olur, deyir ki, bir az tez get. Çünki bizdə qızların axşam saat 8-dən sonra küçəyə çıxmasına icazə verilmir, qadağa qoyublar. Amma mən atamla görüntülü danışır, Bakının küçələrində rahat şəkildə gəzən insanları, oğlan və qızları göstərirəm ki, narahat olmasın.

Bakıdan başqa Azərbaycanın müxtəlif yerlərində, o cümlədən Tufandağda da olmaq, oranı seyr etmək istəyirəm. Müəllimlərim, universitetdəki şərait, bizlərə olan səmimi münasibət ürəyimcədir. Gələcəkdə ürək həkimi olmaq istəyirəm".

### "İsmayıllının bizim Kəlibər şəhəri ilə çox bənzərliyi var"

**Mehdi Teymouri** də II Müalicə-profilaktika fakültəsində oxuyur. O da Nouşi kimi ali təhsili xaricdə almaq fikrində olub: "Tehranda anadan olmuşam. İstəyirdim Fransaya gedəm. Amma əmim 7 ildir Azərbaycanda yaşayır. Burada ticarətlə məşğuldur. Onun məsləhəti ilə Azərbaycan Tibb Universitetini seçdim. Müəllimlərimiz peşəkar və mehribandırlar. Onların tələbələrə münasibətinə heyran qalmışam. Özüm idmançıyam, futbolla məşğul olmuşam. 16 yaşında dizimdən zədə aldım və ona görə futboldan uzaqlaşdım. Hazırda yüngül atletika ilə məşğulam. Burada keçirilən idman yarışlarında iştirak edirəm. Sonuncu dəfə Qobustanda keçirilən marafona qatılmışdım. Şahmat yarışlarında da iştirak etmişəm və idmanın müxtəlif növləri üzrə yerlər tutmuş, medallar qazanmışam. Arada gitarada da ifa edirəm. Asudə vaxtların mənalı keçməsinə çalışıram.

Bakıdan başqa rayonlara da səyahət etmiş, Quba, Qusar, Lerikdə olmuş, İsmayıllını gəzmişəm. Özümə qarşı hər yerdə hörmət görmüşəm. Təkcə mədəniyyətlərimiz, adət-ənənələrimiz oxşar deyil, hətta şəhərlərimiz, dağlarımız, dərələrimiz belə bir-birinə oxşayır. İsmayıllının bizim Kəlibər şəhəri ilə çox bənzərliyi var. Hər iki şəhər oxşar dağlarla əhatə olunub".

### "Hər gün Azərbaycan musiqisi ilə yuxudan oyanıram"

**Tina Karimi** isə Stomatologiya fakültəsinin 1-ci kursunda oxuyur. Nouşi ilə həmyerlidir, Astarada dünyaya gəlib: "Hələ uşaqlıqdan özümü həkimə bənzədirdim. Boş şprisləri su ilə doldurub, oynadığım oyuncaqlara vururdum. Bir az böyüyüb deyəndə ki, həkim olmaq istəyirəm, valideynlərim bu arzuma hörmətlə yanaşdılar. Atamın anası, yəni nənəm Azərbaycandan olduğu və qonşu ölkə olduğumuz üçün ölkənizi, Azərbaycan Tibb Universitetini seçdim. İnsanlarınız olduqca mehriban və qonaqpərvərdir. Yeməkləriniz dadlı və ləzzətlidir. Hər gün Azərbaycan musiqisi ilə yuxudan oyanıram. Xüsusilə, retro mahnılarınızı dinləməkdən ötrü sinov gedirəm. Rəşid Behbudovu, Aygün Bəyləri və digər müğənnilərinizi dinləməkdən zövq alıram. Bakını çox sevir və burada qəriblik hiss etmirəm. Müəllimlərimiz hamı ilə eyni davranır, xoş münasibət göstərirlər. Anlamadıqlarımızı bizə hərtərəfli, səbrlə izah edirlər.

Burada ailəmizlə birgə qalırıq. Anam həmişə Azərbaycan yeməkləri bişirir. İçərişəhərdə, Bulvarda, Bakının mərkəzi yerlərində olmuşam. Özümə rəfiqələr tapmışam, bir-birimizə gediş-gəlişimiz də var. Asudə vaxtlarımda üzgüçülük və tenislə məşğul oluram".

Müsahiblərim söhbətimiz əsnasında bütün müəllimlərdən razılıqlarını bildirdilər. Onlardan Günel Rüstəmova, Aybəniz Qadaşova, Elvina Qulamovanın adlarını xüsusi vurğuladılar.

**Qabil ZİMİSTANOĞLU**



# "Doğma universitet Niderlandda işləməyimə yardımçı oldu"

## ATU-nun məzunu Avropada qazanacağı təcrübəni vətənə gətirəcəyini istisna etmir

**Azərbaycan Tibb Universitetinin məzunları dünyanın dörd bir yanında həkim kimi fəaliyyət göstərərək, insanların sağlamlığının qorunmasında bacarıqlarını nümayiş etdirirlər. Onlardan biri də ATU-nun rezidentura pilləsinin məzunu, hazırda Niderlandda işləyən Nərgiz Axundovadır. O əvvəlcə Almaniyada həkim işləməyi planlaşdırsa da, ailə qurması ilə əlaqədar Niderlanda köçüb.**

Dediyinə görə, bu cür inkişaf etmiş ölkədə təcrübə olmadan işə başlamaq çox çətin və əziyyətli bir yoldur. Amma bu məsələdə doğma ATU ona dayaq olub:

- Azərbaycan Tibb Universitetinin rəhbərliyi bu prosesdə mənə çox böyük dəstək göstərdi, ən qısa zamanda bütün zəruri sənədlərim hazır oldu, sonradan onları tərcümə elətdirib imtahanlardan keçdim. Yalnız zəruri prosedurları uğurla başa vurduqdan sonra həkim işləməyə başladım. Niderland mənim ilk iş ölkəm oldu. Çünki Azərbaycanda hələ işləməyə başlamamışdım. ATU-da bakalavr təhsilimi bitirəndən sonra, rezidenturaya qəbul olmuş, buranı bitirən kimi isə, xaricə köçmüşdüm.

**- Niderlandda hansı sahə üzrə işləyirsiniz, ixtisasınız nədir?**

- Azərbaycanda məhkəmə tibbi ekspertiza üzrə, patoloqoanatom kimi təhsil almışam. Lakin Niderlanda köçdükdən sonra ixtisasımı dəyişmək, həmin ölkədə daha geniş yayılmış və daha maraqlı olan ixtisası seçmək qərarını verdim. İmtahanlardan keçdikdən sonra həlelik ümumi terapevt kimi fəaliyyət göstərirəm. Lakin bir neçə il ərzində kifayət qədər təcrübə topladıqdan sonra ailə həkimi olmaq üçün müraciət edəcəyəm. Bu sahə mənə daha maraqlı görünür. Bunun üçün yalnız müsahibədən keçəcəyəm. Yüksək nəticə göstərə bilsəm, artıq ailə həkimi kimi işləyib təhsil alacağam.

**- Azərbaycandan kifayət qədər fərqlənən bir cəmiyyətə inteqrasiya olunmaq, hətta burada həkim kimi birbaşa insanlarla işləmək çətin deyildi ki?**

- Biz Amsterdamda yaşayırıq və bu şəhəri, ümumiyyətlə ölkənin özünü çox bəyənirəm. Buna baxmayaraq, Azərbaycanı ürəkdən sevən bir insan kimi Vətənim üçün darıxıram, hər zaman Bakıya sevinc içində gəlirəm.

Hər bir ölkədə olduğu kimi, Niderlandda da yaşamağın müsbət və mənfi tərəfləri var. İşə gəlincə, burada təcrübə əldə etmək üçün böyük imkanlar var. Təcrübəli həkimlər sənə güvənir və iş tapşırır. Bu ölkənin səhiyyə sistemi tamamilə fərqlidir. Tam razı olduğum, eyni zamanda razı qalmadığım məqamlar da var. Əsas odur ki, oxuduğun zaman hər şeyi öyrənirsən.

**- Bu ölkədə, ümumiyyətlə Avropada təhsilini davam etdirmək istəyən gənclərə nə məsləhət verərdiniz?**

- Burda təhsildə daha çox praktikaya diqqət yönəldilir ki, bu da gələcəkdə işə başlayanda çox kömək olur. Əlbəttə, praktikanın çox olması səhvlərdən xilas etmir. Bununla belə, gələcəyin həkimləri üçün təcrübənin çox olması onların daha tez müstəqil işə başlamasına köməkdir. Hətta təcili tibb xidməti üzrə də işləyib təcrübə qazanırlar.

Qeyd edim ki, ATU-nun bir neçə ixtisası beynəlxalq akkreditasiyadan keçib. Bununla yanaşı, Avropa İttifaqına üzv olmayan digər ölkələr kimi, bizim məzunlar da burada iş üçün zəruri imtahanlardan keçməlidirlər.

Gələcəkdə müəyyən qədər bilik və təcrübə topladıqdan sonra vətənə dönüb bacarıqları burada tətbiq etmək, tibb dünyasındakı yeni innovativ metodları Azərbaycanda tanıtmaq haqqında danışmaq olar.

Dünyada səhiyyə

# Kubada oropuş virusuna qarşı tədbirlər görülür

**Kubanın səhiyyə orqanları oropuş virusunun yayılması ilə mübarizə məqsədilə avqustun 30-da paytaxt Havanada dezinfeksiya işlərinə başlayıb. Lakin yay mövsümünün yağışlı keçməsi, yanacaq qıtlığı və yollarda artan zibil qalaqları bu səyləri çətinləşdirir.**

AZƏRTAC xəbər verir ki, səhiyyə orqanlarının məlumatına görə, xəstəliyin Kubanın şərqində ilk dəfə aşkar edildiyi may ayından indiyədək virusa 500-dən çox yoluxma halı qeydə alınıb.

“Reuters” xəbər verir ki, ağcaqanadlar vasitəsilə ilə ötürülən virus ölkənin bütün əyalətlərində və böyük şəhərlərində, o cümlədən paytaxt Havanada sürətlə yayılır. Xəstəlik nadir hallarda ölümcül olsa da, xəstələr qızdırma, bədən ağrıları və ürəkbulanmadan şikayət edirlər.



Bu həftə Birləşmiş Ştatların səhiyyə orqanları yayda Kubaya səfər edən 21 ABŞ vətəndaşının oropuş xəstəliyi diaqnozu ilə evlərinə qayıtdığını bildirib.

Eyni zamanda, Braziliya da daxil olmaqla, virusun yayıldığı ölkələrlə müqayisədə Kubada yoluxma hallarının nisbətən az olduğu və xəstəlikdən ölümlərin qeydə alınmadığı bildirilir.

Lakin səlahiyyətlilər iqtisadi böhran və yanacaq, qida və dərman çatışmazlığının oropuş xəstəliyi və denge qızdırması kimi ağcaqanadlarla yoluxan xəstəliklərin yayılmasına nəzarət etmək səylərinə mane olduğunu vurğulayıblar.

Hazırda oropuş qızdırmasına qarşı heç bir xüsusi müalicə və ya peyvənd yoxdur.

# Yaponiyada doğum səviyyəsi kəskin aşağı düşüb

**Yaponiyada doğum səviyyəsi ilin birinci yarısında rekord aşağı səviyyəyə düşüb. Bu barədə Səhiyyə, Əmək və Rifah Nazirliyinin məlumatında bildirilib.**

Qeyd olunub ki, yanvar-iyun aylarında ölkədə 350 mindən bir qədər çox uşaq doğulub. Qeydə alınan rəqəm 2023-cü ilin eyni dövrü üçün qeydə alınan səviyyədən 21 min uşaq (5,7%) azdır.



Artıq üçüncü ildir ki, ilin birinci yarısında doğum səviyyəsi 400 min uşaqdan azdır. Yanvar-iyun aylarında bu rəqəm 1969-cu ildə statistika başlayandan bəri ən aşağı göstəricidir. Bu temp davam edərsə, bütün il üçün doğum səviyyəsi də rekord səviyyədə aşağı düşəcək.

# İngiltərədə açıq havada tütündən istifadə ilə bağlı qaydalar sərtləşdirilir

**Böyük Britaniyanın Baş naziri Keir Starmer tütün məhsullarından istifadə ilə bağlı sərt qaydaların tətbiq ediləcəyini bildirib.**

AZƏRTAC xəbər verir ki, İngiltərədə bəzi açıq məkanlarda siqaret çəkməyin qadağan oluna biləcəyi ilə bağlı xəbərlərə cavab olaraq Keir Starmer Milli Səhiyyə Xidmətinə (NHS) düşən yükü azaltmaq üçün hərəkətə keçməyin lazım olduğunu deyib.

Qadağanın detalları hələ tam olaraq müəyyənləşməsə də, açıq havada fəaliyyət göstərən restoranlarda,



xəstəxanaların və idman meydançalarının ətrafında siqaret çəkməyin qadağan oluna biləcəyi ehtimal olunur. Səhiyyə mütəxəssisləri bu planları müsbət qarşılasa da, bəzi nazirlər qadağanın turizm sektoruna göstərə biləcəyi təsirdən narahatlıqlarını ifadə ediblər.

# Qəzzada bir həftə ərzində 640 min uşaq peyvənd olunacaq

**Beynəlxalq humanitar təşkilatlar Qəzzada poliomielit əleyhinə peyvəndlərin birinci mərhələsinə başlayacaq. Bu barədə Fələstin Qızıl Aypara Cəmiyyəti məlumat yayıb.**

“Bir sıra beynəlxalq və yerli təşkilatlarla birgə həyata keçirilən peyvənd kampaniyası avqustun 31-də başlayacaq və bir həftə davam edəcək. Bu müddət ərzində 640 min uşaq peyvənd olunacaq”, - məlumatda bildirilib.

Cəmiyyət artıq Birləşmiş Millətlər



Təşkilatının Uşaq Fondundan peyvəndləri saxlamaq üçün dörd xüsusi soyuducu alıb.

Avqustun 16-da Fələstin Səhiyyə Nazirliyi Qəzza zolağında 10 aylıq körpədə ilk təsdiqlənmiş poliomielit hadisəndiğını açıqlayıb.

**Azərbaycan Tibb Universitetinin klinikalarında müxtəlif xəstəliklərin diaqnostikası və müalicəsinə dair vaxtaşırı müzakirələr aparılır. Konkret xəstə üzərində aparılan təhlillərə tələbələr və rezidentlər xüsusi maraq göstərərək praktik bacarıqlarını təkmilləşdirirlər. Pasiyentlər arasında süd vəzi xəstəlikləri ilə bağlı müraciət edənlər də az deyil.**

# Düzgün müayinə sağlamlığın əsasıdır



Belə pasiyentlərdən biri haqqında ATU-nun Şüa diaqnostikası və şüa terapiyası kafedrasının assistenti Günel Əliyeva məlumat verib:

“Xəstə Ukrayna vətəndaşıdır. Müharibə dönəmində Azərbaycana köçüb. Bura köçməzdən öncə sağ süd vəzində rezeksiya aparılaraq fibroadenoma götürülüb. Lakin xəstə 38 yaşında, gec də olsa ikinci övladını dünyaya gətirib. Hazırda 43 yaşı olan qadın laktasiya dövrü bitdikdən sonra mammoqrafik müayinəyə gəlib. Mammoqrafik müayinədə biz yüksək toxuma sıxlığı fonunda çoxlu sayda dairəvi, düzgün konturlu ümumi bir görünüş əldə etdik. Amma heç bir həkim mammoqrafiya altında strukturu, eləcə də dairəvi törəmənin məhz fibroadenoma, kista və yaxud medulyar xərçəng olmasını qiymətləndirə bilməz. Dairəvi forma, düzgün kənarlar, konturların düzgünlüyü qadında daha çox xoşxassəli prosesin inkişaf etməsi haqqında təsəvvür yaradırdı. Ona görə də yüksək toxuma sıxlığını nəzərə alaraq əlavə metod kimi əvvəlcə ultrasəs müayinəsi apardıq. Ultrasəs müayinəsində bu dairəvi törəmələrin məhz qarışıq struktura malik olmasını görə bildik. Yəni bu törəmələrin fibroadenoma və ya kista olmasını dəqiq müəyyən etmək mümkün deyildi”.

Onun sözlərinə görə, ultrasəs həkimləri bu kimi halları fibroadenoma kimi təsvir edə bilsələr də, törəmənin qidalanmamasını, konturunu nəzərə alaraq anamnezi diqqətlə nəzərdən keçirmək vacibdir. Çünki qadın yaxın zamanda laktasiya dövründən çıxdığı üçün çox güman ki, bu törəmələr süd kistalarıdır. Tərkibində südlü möhtəviyyat toplandığına görə süd kistaları fibroadenomalara çox bənzəyir. Belə hallarda çox vaxt xəstələrə həmin mayenin çəkilməsi təklif edilir.

Qadınların südvermə dövründə mütəmadi ultrasəs müayinəsindən keçməsinə heç bir məhdudiyyət qoyulmadığını söyləyən həkim, eyni zamanda “süd verən qadında xərçəng ola bilməz” düşüncəsinin də yanlış olduğunu deyib. Bildirib ki, süd verən qadında da xərçəng, mutasiya aşkarlana bilər, hətta hamiləlik, süni mayalanma dövründə də xərçəngin aşkarlanması mümkündür. Məhz bu nöqteyi-nəzərdən əgər mutasiya yoxdursa, qadınların 40 yaşa qədər ultrasəs, lazım gələrsə MRT, 40 yaşından sonra isə mammoqrafiya, əlavə olaraq USM, MRT müayinəsindən keçməsi tövsiyə olunur. Hansısa bir patologiya varsa, ona uyğun tədbirlər görülür.

Həkim onu da diqqətə çatdırıb ki, oxşar xəstəliklər zamanı bütün qadınlar maarifləndirici qaydaları əsas götürməklə, özlərini müayinə etməlidirlər. Burada düzgün müayinə sxeminin tətbiq edilməsi isə vacib şərtdir. Yəni qadın menstruasiyanın 6-cı və ya 11-ci günlərində müayinəyə gəlməlidir. Çünki bu dövrdə süd vəzi sakit olur. Unutmayaq ki, düzgün müayinə sağlamlığın əsasıdır.

**Allah rəhmət eləsin!**

Patoloji anatomiya, İnsan anatomiyası və tibbi terminologiya kafedralarının əməkdaşları və "Təbib" qəzetinin kollektivi Patoloji anatomiya kafedrasının dosenti, universitetin beynəlxalq əlaqələr şöbəsinin müdiri Müşfiq Orucova anası

**Elmira xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

II Uşaq xəstəlikləri kafedrasının əməkdaşlarıkafedranın assistenti Səbahət Nəsirovaya anası

**Safura xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Elmi Araşdırmalar Mərkəzinin əməkdaşları iş yoldaşları Morfologiya və Histologiya şöbəsinin müdiri Fərid Müseyibova dayısı

**Fərhad Sultanovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Elmi Araşdırmalar Mərkəzinin əməkdaşları iş yoldaşları böyük elmi işçi Rəna Kərimovaa dayısı

**Azər Kərimovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Elmi Araşdırmalar Mərkəzinin əməkdaşları iş yoldaşları Sevinc Allahverdiyevaya anası

**Cəmilə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Etibarsız sayılır**

Bayramov Mahir Fərman oğlunun YAP-a üzvlük vəsiqəsi (seriya174176) itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

“Təbib” qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun “Təbib” nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0014
Sayı 800